ORCA

# KSƏTƏM Siyasəti

ORCA Offshore və onun bütün təmsilçi şirkətləri təmin etdikləri bütün məhsulların müştərilərinin, eləcə də bütün şamil olunan maraqlı tərəflərin gözləntilərinə və tələblərinə tam cavab verməsini və təcrübi baxımdan mümkün olduqda, belə gözlənti və tələblərdən artıq olmasını təmin etməyi qarşısına məqsəd qoymuşdur.

Bu məqsəd bütün dünyada Neft, Qaz, Dəniz və İnşaat sahəsi müəssisələrinə bütün premium yükqaldırma, takelaj və dəniz texnikalarının təchizi, yoxlanması, test olunması, təlim xidmətlərinin və OCTG (neft sənayesi təyinatlı borular) xidmətlərinin göstərilməsi proseslərinə istiqamətlənir.

Bu məqsədə nail olmaqda uğur qazanmaq üçün şirkət daxilində hər bir işçi KSƏTƏM qaydalarına əməl etməlidir.
Bizim əsas vəzifəmiz sistem daxilində prosesə yanaşmanı yaratmaq və bütün prosesləri ISO 9001:2015, ISO 14001:2015, ISO 45001:2018 standartlarının tələblərinə, şirkətin riayət etdiyi qanuni və digər tələblərə uyğun şəkildə həyata keçirməkdən ibarətdir.

Şirkət sistemi və bütün əlaqədar fəaliyyətləri, o cümlədən müştəri məmnuniyyəti və müvafiq təşəbbüslər, yoxlamalar, resursların təmin olunması və təlimlər və işçilərin cəlb edilməsi ilə bütün maraqlı tərəflərin məmnuniyyətini davamlı şəkildə təkmilləşdirməyi qarşısına məqsəd qoymuşdur. Sistemi tətbiq etmək üçün güclü liderlik yanaşması ilə risk əsaslı düşüncə tərzi istifadə olunacaqdır.

Bütün yuxarıda qeyd olunanlara şirkətin hədəflərini və əsas iş göstəricilərini müəyyənləşdirməklə nail olunacaqdır ki, nəzərdə tutulan gözləntilərdə əldə edilən maksimum səmərəlilik təmin olunsun.

ORCA rəhbərliyinin digər öhdəlikləri:

- KSƏTƏM sistemi çərçivəsində yaradılmış, prosesləri effektiv icra etmək üçün tələb olunan bütün resursları və işçilərin rifahını və keyfiyyətli xidmət göstərilməsini təmin etmək;
- İşlə əlaqədar zədələnmələrin, xəstəliklərin və ətraf mühitə zərərlərin baş verməsinin qarşısını almaq üçün təhlükəsiz və sağlam iş mühitini yaratmaq;
- Şirkətin fəaliyyətləri, işçi heyəti və bütün aidiyyəti maraqlı tərəflər, iş zamanı sağlamlıq və təhlükəsizlik, əmək təhlükəsizliyi və ətraf mühit ilə bağlı bütün risk və təhlükələri müəyənləşdirmək, qiymətləndirmək, azaltmaq və aradan qaldırmaq;
- KSƏTƏM Sisteminin icrasına bütün KSƏTƏM heyəti, o cümlədən cəlb olunan xarici tərəflər, eləcə də subpodratçılar, təchizatçılar və s. üçün əsas məsuliyyət kimi baxmaq;
- KSƏTƏM mükəmməlyinə nail olmaq üçün bütün işçilər üçün tələb olunan məlumatlılığı, təlim, iştirak və məsləhətləşməni təmin etmək;
- Hər bir işçinin bu siyasətin mətni ilə tanış olmasını təmin etmək.

Bu siyasətin məqsədlərinə nail olmaqda uğuru təmin etmək və KSƏTƏM sahəsində davamlı təkmilləşdirmələr aparmaq məqsədilə lazım bilinən hər hansı dəyişiklərin aparılmasını tövsiyyə etmək üçün bu siyasətə rəhbərlik tərəfindən ən azı illik əsasda baxılmalıdır.

Bu siyasət KSƏTƏM Sistemi ilə onun olunması və ona əməl edilməsi ilə bağlı Rəhbərliyin öhdəliyini göstərmək üçün Direktor tərəfindən təsdiq olunur.

**İmza: Direktor Craig Michael Dunn** [signature]

**Tarix:** 07/10/2019